| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 29.06.2004 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 716-IIQ |
| **ADI** | Mühasibat uçotu haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 02-09-2004, Nəşr nömrəsi: 204), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2004, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 605) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 02.09.2004 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Mühasibat uçotu haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

F ə s i l I
**ÜMUMİ MÜDDƏALAR**

M a d d ə 1 . **Qanunun təyinatı**

1.1. Bu qanun mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (bundan sonra mətndə - mühasibat uçotu subyektləri adlandırılacaq) tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi qaydalarını tənzimləyir.

1.2. Azərbaycan Respublikasının ərazisində qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla icra hakimiyyəti orqanları ~~və büdcədənkənar dövlət fondları~~ tərəfindən onların səlahiyyətləri daxilində işlənib hazırlanmış mühasibat uçotu ilə əlaqədar bütün normativ hüquqi aktlar~~, habelə tövsiyə xarakteri daşıyan sənədlər~~ müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılaraq, təsdiq edildikdən sonra tətbiq edilə bilər.[1]

*1.3. Bu Qanun Ələt azad iqtisadi zonasına şamil edilmir. Ələt azad iqtisadi zonasında mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[2]

M a d d ə 2 . **Əsas anlayışlar**

2.1. Bu qanunda istifadə edilmiş anlayışlar aşağıdakı mənaları ifadə edir:

*2.1.1. Uçot qaydaları – mühasibat uçotu subyektlərində mühasibat uçotunun aparılması, mühasibat uçotu sənədlərinin tərtib edilməsi, habelə ayrı-ayrı maliyyə-təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi üzrə ~~normativ~~ hüquqi aktlardır.*[3]

2.1.2. Qrup - əsas təsərrüfat cəmiyyəti (ortaqlığı) və onun bütün törəmə cəmiyyətləridir.

*2.1.3. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları – bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilat tərəfindən qəbul olunmuş Mühasibat Uçotunun Beynəlxalq Standartları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və bu standartlar üzrə həmin beynəlxalq təşkilatın şərhləridir.*[4]

*2.1.4. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları - bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilat tərəfindən qəbul olunmuş ictimai sektor üçün nəzərdə tutulan beynəlxalq standartlardır.*

*2.1.5. Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları – bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilat tərəfindən qəbul olunmuş kiçik və orta sahibkarlıq subyektləri üçün nəzərdə tutulan beynəlxalq standartlardır.*

*2.1.6. Mühasibat uçotu – mühasibat uçotu subyektlərinin aktivləri, öhdəlikləri, kapitalı, gəlir və xərcləri barədə məlumatların yığılması, qeydiyyatı və ümumiləşdirilməsi, habelə maliyyə, vergi və digər hesabatların tərtib edilməsi məqsədi ilə baş vermiş maliyyə-təsərrüfat əməliyyatları üzrə ilkin uçot sənədləri əsasında məlumatların analitik və sintetik uçotunun aparılmasıdır.*

*2.1.7. Maliyyə hesabatları – mühasibat uçotu subyektinin maliyyə-təsərrüfat fəaliyyəti, habelə maliyyə vəziyyəti barədə sistemləşdirilmiş məlumatları özündə əks etdirən hesabatlardır.*

2.1.8. Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları əsas cəmiyyətin (ortaqlığın) və onun törəmə cəmiyyətlərinin vahid mühasibat uçotu subyekti kimi təqdim etdiyi maliyyə hesabatlarıdır.

2.1.9. İctimai əhəmiyyətli qurumlar - kredit təşkilatları, *sığortaçılar, təkrarsığortaçılar,* investisiya fondları *və bu fondların idarəçiləri*, qeyri-dövlət (özəl) sosial fondları, *qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər,* qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər və maliyyə hesabatlarının tərtibi tarixində müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi meyar göstəricilərinin (illik gəliri, hesabat ili ərzində işçilərin orta sayı və balansın yekun məbləği) ikisindən yuxarı olan göstəricilərə malik kommersiya təşkilatlarıdır.[5]

*2.1.10. Mühasibat uçotu sənədi - ilkin uçot sənədləri, mühasibat uçotu registrləri, maliyyə hesabatları, habelə uçotun formalaşdırılması üçün tərtib edilən sənədlərdir.*[6]

*2.1.11. İlkin uçot sənədləri – maliyyə-təsərrüfat əməliyyatlarının aparılması üçün mühasibat uçotu subyektinin rəhbərinin göstərişini təsdiq edən və ya bu əməliyyatların baş verməsinə hüquq verən, habelə mühasibat uçotunun aparılmasına əsas verən yazılı və ya elektron daşıyıcılarda olan təsdiqedici sənədlərdir.*

*2.1.12. Mühasibat uçotu registrləri – ilkin uçot sənədlərindəki məlumatların mühasibat uçotunda, maliyyə, vergi və digər hesabatlarda əks etdirilməsi məqsədi ilə həmin məlumatların xronoloji ardıcıllıqla sistemləşdirilməsi və yığılması üçün nəzərdə tutulan sənədlərdir.*

*2.1.13. Analitik uçot – aktivlərin, öhdəliklərin, kapitalın, gəlir və xərclərin hər biri üzrə açılan analitik uçot registrlərində təfsilatı ilə qeydiyyatı və qruplaşdırılmasıdır.*

*2.1.14. Analitik uçot registrləri - aktivlərin, öhdəliklərin, kapitalın, gəlir və xərclərin ayrılıqda hər biri üzrə məlumatların təfsilatı ilə açıqlanmasını və qruplaşdırılmasını təmin edən jurnallar, cədvəllər və kartlardır.*

*2.1.15. Sintetik uçot - baş vermiş maliyyə-təsərrüfat əməliyyatları üzrə məlumatların ilkin uçot sənədləri və analitik uçot registrləri əsasında sistemləşdirilmiş şəkildə toplanması, mühasibat uçotu registrlərində əks etdirilməsi və ümumiləşdirilməsidir.*

*2.1.16. Mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri - müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına əsasən hesabat dövrünün son tarixinə mikro, kiçik,*

orta və iri sahibkar hesab olunan sahibkarlıq subyektləridir.

2.1.17. Baş mühasib vəzifəsinə təyin edilən, habelə bu vəzifələri icra edən şəxs (bundan sonra - baş mühasib) – mühasibat uçotu subyektində mühasibat uçotunun aparılmasını təmin edən, mühasibat uçotuna əsasən maliyyə, vergi və digər hesabatların tərtib edilməsinə, habelə uçotun formalaşdırılmasına və mühasibat uçotu sənədlərinin saxlanılmasına cavabdeh olan vəzifəli şəxsdir.

2.1.18. Mühasibat uçotu xidməti - mühasibat uçotu subyektlərində öz işçiləri və ya müqavilə əsasında sahibkarlıq subyektləri tərəfindən mühasibat uçotunun aparılması, o cümlədən maliyyə, vergi və digər hesabatların hazırlanması və təqdim edilməsi sahəsində göstərilən xidmətdir.

2.1.19. Peşəkar mühasib – müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçərək, peşəkar mühasib sertifikatını almış və peşəkar mühasib təşkilatının üzvü olan şəxsdir.

2.1.20. Peşəkar mühasib sertifikatı – şəxsin müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçdiyini və "Peşəkar mühasib" səviyyəsinə uyğunluğunu təsdiq edən sənəddir.

2.1.21. Peşəkar mühasib səviyyəsi – maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına və ya Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib edilməsi, habelə Azərbaycan Respublikasının qanunlarına əsasən vergi və digər hesabatların hazırlanması və təqdim edilməsi bacarığını təsdiq edən peşəkarlıq səviyyəsidir.

2.1.22. Peşəkar mühasib təşkilatı – üzvləri peşəkar mühasiblərdən ibarət olan və müvafiq icra hakimiyyəti orqanı tərəfindən akkreditasiya olunmuş qeyri-kommersiya təşkilatıdır.

2.1.23. Uçot siyasəti - maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi zamanı mühasibat uçotu subyektləri tərəfindən tətbiq edilən konkret prinsiplər, əsaslar, şərtlər və yanaşmalardır.

2.2. Bu qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının Mülki Məcəlləsi və mövcud olan başqa qanunvericilik aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

M a d d ə 3 . **Mühasibat uçotunun məcburiliyi**

3.1. Bütün mühasibat uçotu subyektlərində mühasibat uçotunun bu Qanunla müəyyən edilmiş müvafiq mühasibat uçotu standartlarına və uçot qaydalarına uyğun aparılması məcburidir.[7]

3.2. Mühasibat uçotu subyektinin rəhbəri tərəfindən müvafiq struktur bölmə yaradılmaqla və ya müqavilə əsasında sahibkarlıq subyektləri cəlb edilməklə mühasibat uçotu xidmətinin göstərilməsi təşkil edilir. Mikro ~~və kiçik~~ sahibkarlıq subyektlərinin rəhbərləri və fərdi sahibkarların şəxsən özləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş mikro ~~və kiçik~~ sahibkarlıq subyektlərində uçotun aparılması qaydalarına uyğun olaraq mühasibat uçotunu aparmaq hüququna malikdirlər.[8]

3.3. Mühasibat uçotu subyektində baş mühasib mühasibat uçotunun aparılmasını, mühasibat uçotuna əsasən maliyyə, vergi və digər hesabatların tərtib edilməsini, uçotun formalaşdırılmasını və mühasibat uçotu sənədlərinin saxlanılmasını təmin edir.

3.4. Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, iri, orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri peşəkar mühasiblər olmalıdırlar.[9]

3.5. Bu Qanunun 3.4-cü maddəsində göstərilən mühasibat uçotu subyektlərinə müqavilə əsasında mühasibat uçotu xidmətini həyata keçirən hüquqi şəxsin ən azı iki, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin özü peşəkar mühasib olmadığı hallarda, ən azı bir peşəkar mühasiblə əmək müqaviləsi olmalıdır.

F ə s i l II

## MÜHASİBAT UÇOTU SAHƏSİNDƏ TƏNZİMLƏNMƏ *VƏ NƏZARƏT*[10]

M a d d ə 4 . **Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi**

4.1. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimləməsinin əsas məqsədi Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları və uçot qaydaları əsasında ölkədə maliyyə hesabatlarının tərtib olunmasını və mühasibat uçotunun aparılmasını təmin etməkdən ibarətdir.[11]

4.2. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

4.3. *Müvafiq* icra hakimiyyəti orqanı: [12]

4.3.1. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının Azərbaycan dilinə tərcüməsini təşkil edir və bu tərcümələrin həmin standartların Azərbaycan dilində rəsmi mətnləri kimi dərc olunmasını təmin edir;[13]

4.3.2. bu Qanuna uyğun olaraq uçot qaydalarını təsdiq edir;

4.3.3. İcra hakimiyyəti orqanlarının ~~və büdcədənkənar dövlət fondlarının~~ səlahiyyətləri daxilində onlar tərəfindən işlənib hazırlanmış mühasibat uçotu sahəsində normativ hüquqi aktların ~~və tövsiyə xarakteri daşıyan sənədlərin~~ *təsdiq* edilməsinə razılıq verir; [14]

4.3.4. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarında, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarında və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarında dəyişikliklərin izlənilməsi və bu dəyişikliklərin onların Azərbaycan dilində olan rəsmi mətnlərində vaxtlı-vaxtında əks

*olunması məqsədi ilə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;* [15]

~~4.3.5. Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması qaydalarını hazırlayır və təsdiq edir;~~ [16]

4.3.6. Milli mühasibat uçotu sisteminin təkmilləşdirilməsi məqsədilə, peşəkar mühasib təşkilatları ilə əməkdaşlıq edir;

*4.3.7. Peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılmasını təmin edir;* [17]

*4.3.8. Peşəkar mühasib təşkilatının akkreditasiya olunmasını həyata keçirir.*

*4.3-1. Bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan beynəlxalq standartlar onların Azərbaycan dilində rəsmi mətnləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərc olunduğu gündən tətbiq edilir. Beynəlxalq standartların Azərbaycan dilində rəsmi mətnləri ilk dəfə dərc olunduqdan sonra müvafiq icra hakimiyyəti orqanı təsdiq etdiyi müvafiq Milli Mühasibat Uçotu Standartlarını və uçot qaydalarını ləğv edir.*

*4.3-2. Bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan beynəlxalq standartların Azərbaycan dilində rəsmi mətnləri dərc olunanadək mühasibat uçotu subyektləri müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi Milli Mühasibat Uçotu Standartlarını və müvafiq uçot qaydalarını və ya bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan beynəlxalq standartları ixtisaslaşmış beynəlxalq təşkilat tərəfindən qəbul olunmuş formada tətbiq etmək hüququna malikdirlər.*

*4.3-3. Bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan beynəlxalq standartlarla ixtisaslaşmış beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş beynəlxalq standartlar arasında ziddiyyət yarandığı halda, ixtisaslaşmış beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş standartlar əsas götürülür.*

*4.4. Kredit təşkilatları tərəfindən mühasibat uçotunun aparılması qaydaları, o cümlədən illik maliyyə hesabatlarının forma və məzmunu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.* [18]

### M a d d ə 5 . ***Mühasibat uçotu sahəsində dövlət nəzarəti*** [19]

*5.1. Mühasibat uçotunun aparılmasına dövlət nəzarəti mühasibat uçotu subyektlərinin aidiyyəti üzrə bu Qanunla müəyyən edilmiş uçot qaydalarına riayət etməsinin yoxlanılmasıdır.*

*5.2. Mühasibat uçotu subyekti (bu Qanunun 5.3-cü maddəsində göstərilən təşkilatlar istisna olmaqla) tərəfindən bu Qanunla müəyyən edilmiş tələblərə uyğun mühasibat uçotunun aparılmasına, habelə bu Qanunun 3.2-ci və 3.4-cü maddələrinin tələblərinin təmin edilməsinə dövlət nəzarəti həmin subyektlərdə müvafiq icra hakimiyyəti orqanları tərəfindən dövlət maliyyə nəzarəti tədbirləri və vergi yoxlamaları aparılarkən həyata keçirilir.*

*5.2-1. Kənar dövlət maliyyə nəzarətinin obyektində mühasibat uçotunun aparılmaması, yaxud qanunvericiliyin tələblərinə uyğun təşkil edilməməsi səbəbindən zəruri məlumatları əldə etmək mümkün olmadıqda, Azərbaycan Respublikasının Hesablama Palatası "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, kənar dövlət maliyyə nəzarətinin obyektindən mühasibat uçotunun təmin edilməsini tələb edir.* [20]

*5.3. Kredit təşkilatları, sığortaçılar, təkrarsığortaçılar, hüquqi şəxs olan sığorta brokerləri və müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər, investisiya fondları və bu fondların idarəçiləri, habelə qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin mühasibat uçotunun aparılmasına, habelə bu Qanunun 3.2-ci və 3.4-cü maddələrinin tələblərinin təmin edilməsinə nəzarət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilir.* [21]

## F ə s i l III
## MÜHASİBAT UÇOTU STANDARTLARI

### M a d d ə 6 . **Azərbaycan Respublikasında tətbiq edilən mühasibat uçotu standartları**

6.0. Bu qanuna müvafiq olaraq Azərbaycan Respublikasında tətbiq edilən mühasibat uçotu standartları aşağıdakılardır:

*6.0.1. bu Qanunun 8.1-ci və 12-1.1-ci maddələrində göstərilmiş mühasibat uçotu subyektləri tərəfindən istifadə edilən Maliyyə Hesabatlarının Beynəlxalq Standartları;* [22]

*6.0.2. bu Qanunun 9-cu, 10.1-ci, 10.1-1-ci və 12-1.2.1-ci maddələrində göstərilmiş mühasibat uçotu subyektləri tərəfindən istifadə edilən Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları;*

*6.0.3. bu Qanunun 12-1.2.2-ci və 13.1-ci maddələrində göstərilmiş mühasibat uçotu subyektləri tərəfindən istifadə edilən İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları.*

~~6.0.4. Bu qanunun 13.2-ci maddəsində göstərilmiş mühasibat uçotu subyektləri tərəfindən istifadə edilmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının qəbul etdiyi Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları.~~ [23]

### ~~M a d d ə 7 . **Milli Mühasibat Uçotu Standartlarının hazırlanması və qəbul edilməsi**~~ [24]

~~7.1. Mühasibat Uçotu üzrə Məsləhət Şurasının tövsiyəsi ilə mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı yeni Milli Mühasibat Uçotu Standartlarının və ya mövcud olan Milli Mühasibat Uçotu Standartlarına düzəlişin ilkin layihəsinin dərc olunmasını və bütün maraqlı tərəflərdən 60 gün ərzində həmin layihəyə dair rəylərin alınmasını təşkil edir.~~

~~7.2. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı bu qanunun 7.1-ci maddəsində qeyd olunan rəylərin nəzərdə keçirilməsi nəticəsində təklif edilən ilkin layihənin qəbul edilməsi barədə~~

~~qərar verir. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı yeni Milli Mühasibat Uçotu Standartlarını və ya mövcud olan Milli Mühasibat Uçotu Standartlarına düzəlişi ilkin layihədə dərc edildiyi kimi təsdiq etdikdə, həmin standartların və ya düzəlişin qüvvəyə minməsi tarixini müəyyən edir.~~

~~7.3. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı ilkin layihəyə dəyişikliklər etmək qərarına gəldikdə, yeni Milli Mühasibat Uçotu Standartlarının və ya mövcud olan Milli Mühasibat Uçotu Standartlarına düzəlişin dəyişdirilmiş layihəsini hazırlayır və təsdiq edir, həmin standartların və ya düzəlişin qüvvəyə minməsi tarixini müəyyən edir.~~

~~7.4. Təklif edilən ilkin layihənin düzəlişlə birlikdə və ya düzəlişsiz təsdiq edilməsi zamanı mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı həmin ilkin layihənin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğunluğunu və Mühasibat Uçotu üzrə Məsləhət Şurasının tövsiyəsini nəzərə alır.~~

~~Qəbul edilən Milli Mühasibat Uçotu Standartları və ya Milli Mühasibat Uçotu Standartlarına düzəliş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarından və ya Mühasibat Uçotu üzrə Məsləhət Şurasının tövsiyəsindən fərqli olduqda, mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı Milli Mühasibat Uçotu Standartlarının və ya Milli Mühasibat Uçotu Standartlarına düzəlişin qəbul edilməsinə dair qərarın əlavəsində bu fərqləri göstərməli və onun səbəblərini açıqlamalıdır.~~

~~7.5. Milli Mühasibat Uçotu Standartlarının hazırlanması və qəbul edilməsi qaydaları mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.~~

## F ə s i l IV
## KOMMERSİYA TƏŞKİLATLARININ *MÜHASİBAT UÇOTU VƏ* MALİYYƏ HESABATLARI[25]

**M a d d ə 8. İctimai əhəmiyyətli qurumların *mühasibat uçotunun aparılması və* maliyyə hesabatlarının tərtib edilməsi** [26]

8.1. *İctimai* əhəmiyyətli qurumlar bu qanuna əsasən tələb olunan maliyyə hesabatlarını ~~yalnız~~ Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edirlər. [27]

*8.1-1. Bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş mühasibat uçotu subyektləri (kredit təşkilatları istisna olmaqla) mühasibat uçotunu Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi uçot qaydalarına uyğun aparırlar.*[28]

8.2. Bir və ya daha çox törəmə cəmiyyətə malik olan hər hansı ictimai əhəmiyyətli qurum hüquqi şəxs kimi hazırladığı maliyyə hesabatından əlavə olaraq, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları tərtib etməlidirlər.

8.3. İctimai əhəmiyyətli qurum birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını aşağıda göstərilən dörd şərti bütövlükdə yerinə yetirdikdə tərtib *etməmək hüququna malikdirlər*: [29]

8.3.1. qurum törəmə cəmiyyət olduqda və onun bütün mülkiyyətçiləri (iştirakçıları, səhmdarları), səs vermə hüququ olmayanlar da daxil olmaqla, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməməsi barədə yekdilliklə razılığa gəldikdə;

8.3.2. qurumun qiymətli kağızları açıq şəkildə satılmadıqda;

8.3.3. qurum açıq bazara qiymətli kağızları buraxmadıqda;

8.3.4. qurumun bilavasitə və ya son nəticədə tabe olduğu əsas cəmiyyət Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu qanunun 12-ci maddəsinin tələblərinə müvafiq olaraq dərc etdirdikdə.

***M a d d ə 9. M i k r o ~~və kiçik~~ sahibkarlıq subyektlərinin mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsi***[30]

*9.1. Mikro ~~və kiçik~~ sahibkarlıq subyektləri:*

*9.1.1. mühasibat uçotunun aparılmasını müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi mikro ~~və kiçik~~ sahibkarlıq subyektlərində uçotun aparılması qaydalarına uyğun olaraq təmin edirlər, və ya;*

*9.1.2. öz seçimlərindən asılı olaraq, maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib etmək hüququna malikdirlər. Bu halda mikro ~~və kiçik~~ sahibkarlıq subyektləri mühasibat uçotunu, tətbiq etdiyi standartlardan asılı olaraq, bu Qanunun 8.1-1-ci və ya 10.1.1-ci maddələrində nəzərdə tutulmuş uçot qaydalarına uyğun aparırlar.*

*9.2. Mikro ~~və kiçik~~ sahibkarlıq subyektləri, öz seçimlərindən asılı olaraq, növbəti il üçün illik maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib etmək qərarını, uçot siyasətində əks etdirməklə, cari ilin dekabr ayının 31-dək qəbul edir.*

**M a d d ə 10. *İri, orta və kiçik sahibkarlıq subyektlərinin mühasibat uçotunun aparılması və* maliyyə hesabatlarının tərtib edilməsi** [31]

*10.1. İri və orta sahibkarlıq subyektləri:* [32]

*10.1.1. maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq*

*Standartlarına uyğun tərtib etməlidirlər. Bu halda iri və orta sahibkarlıq subyektləri mühasibat uçotunu Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi uçot qaydalarına uyğun aparırlar, və ya;*[33]

*10.1.2. öz seçimlərindən asılı olaraq, maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib etmək hüququna malikdirlər. Bu halda mühasibat uçotunu bu Qanunun 8.1-1-ci maddəsi ilə müəyyən edilmiş uçot qaydalarına uyğun aparırlar.*

*10.1-1. Kiçik sahibkarlıq subyektləri:*[34]

*10.1-1.1. bu Qanunun 10.1.1-ci maddəsində nəzərdə tutulmuş uçot qaydalarına uyğun olaraq mühasibat uçotunun aparılmasını təmin edirlər, və ya;*

*10.1-1.2. öz seçimlərindən asılı olaraq, maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib etmək hüququna malikdirlər. Bu halda kiçik sahibkarlıq subyektləri mühasibat uçotunu tətbiq etdiyi standartlardan asılı olaraq, bu Qanunun 8.1-1-ci və ya 10.1.1-ci maddələrində nəzərdə tutulmuş uçot qaydalarına uyğun aparırlar.*[35]

*10.1-2. Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilən hallarda kiçik sahibkarlıq subyektləri tərəfindən maliyyə hesabatlarının tərtib edilməsi məcburidir.*

*10.2. Törəmə cəmiyyətlərindən heç olmasa biri ictimai əhəmiyyətli qurum olan, habelə əsas və ya törəmə cəmiyyətlərindən biri maliyyə hesabatlarını öz seçiminə görə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib edən iri, orta və kiçik sahibkarlıq subyektlərinin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib edilir.*[36]

*10.3. Bu Qanunun 10.2-ci maddəsinə əsasən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib etmək öhdəliyi olmayan iri, orta və kiçik sahibkarlıq subyektləri birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib edirlər.*

*10.4. Bir və ya daha çox törəmə cəmiyyətlərə malik olan iri , orta və kiçik sahibkarlıq subyektləri aşağıda göstərilən şərtləri bütövlükdə yerinə yetirdikdə birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib etməmək hüququna malikdirlər:*[37]

10.4.1. qurum törəmə cəmiyyət olduqda və onun bütün mülkiyyətçiləri (iştirakçıları, səhmdarları), səs vermə hüququ olmayanlar da daxil olmaqla, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməməsi üzrə yekdilliklə razılığa gəldikdə;

10.4.2. qurumun qiymətli kağızları açıq şəkildə satılmadıqda;

10.4.3. qurum açıq bazara qiymətli kağızları buraxmadıqda;

10.4.4. qurumun bilavasitə və ya son nəticədə tabe olduğu əsas cəmiyyət Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya *Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına* uyğun birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu qanunun 12-ci maddəsinin tələblərinə müvafiq olaraq dərc etdirdikdə.[38]

*10.5. İri, orta və kiçik sahibkarlıq subyektləri, öz seçimlərindən asılı olaraq, növbəti il üçün illik maliyyə hesabatlarını Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib etmək qərarını, uçot siyasətində əks etdirməklə, cari ilin dekabr ayının 31-dək qəbul edir.*[39]

M a d d ə 1 1 . **Kommersiya təşkilatlarının maliyyə hesabatları üçün hesabat dövrü**

11.0. Kommersiya təşkilatlarının illik maliyyə hesabatları üçün aşağıdakı hesabat dövrləri müəyyən edilir:

11.0.1. İl ərzində oktyabr ayının 1-dək yeni yaradılan mühasibat uçotunun subyektləri üçün birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən dekabr ayının 31-i də daxil olmaqla;

11.0.2. Oktyabr ayının 1-dən sonra yeni yaradılmış mühasibat uçotunun subyektləri üçün isə birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən növbəti ilin dekabr ayının 31-i də daxil olmaqla;

11.0.3. Digər mühasibat uçotunun subyektləri üçün hesabat dövrü yanvar ayının 1-dən dekabr ayının 31-i də daxil olmaqla.

M a d d ə 1 2 . **Kommersiya təşkilatlarının maliyyə hesabatlarının təqdim və dərc edilməsi qaydası**

12.1. Kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını *müvafiq qurumlara* qanunvericilik aktları ilə, digər şəxslərə isə nizamnamələri ilə müəyyən olunmuş hallarda ~~, qaydada və müddətlərdə~~ təqdim edirlər. *Bu Qanunun 5.3-cü maddəsində göstərilən mühasibat uçotu subyektləri tərəfindən maliyyə hesabatlarının təqdim edilməsi və dərc olunması qaydası Azərbaycan Respublikasının müvafiq sahəvi qanunları ilə tənzimlənir. Digər kommersiya* təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc olunması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[40]

12.2. Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə ~~mühasibat uçotu sahəsində dövlət tənzimlənməsini həyata keçirən~~ müvafiq icra hakimiyyəti orqanına bu Qanunun 12.1-ci *maddəsinə müvafiq olaraq müəyyən olunmuş müddətlərdə*

təqdim edirlər.[41]

12.3. İctimai əhəmiyyətli qurumlardan və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hazırlayan *kommersiya təşkilatlarından (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla),* habelə bu Qanunun 12.2-ci maddəsində qeyd edilən *təşkilatlardan* həmçinin aşağıdakılar tələb olunur:[42]

12.3.1. qurumun İnternet səhifəsi olduqda, həmin məlumatlardan sərbəst istifadə edilməsini təmin etmək şərtilə, illik maliyyə hesabatının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının~~, qanunla müəyyən edilmiş hallarda~~ auditor rəyi ilə birlikdə, həmin internet səhifəsində *və ya mətbu orqanda* dərc olunması;[43]

~~12.3.2. qurumun illik maliyyə hesabatının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə mətbu orqanda dərc olunması;~~[44]

12.3.3. qurumun illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının nüsxəsinin ~~qanunla müəyyən edilmiş hallarda~~ auditor rəyi ilə birlikdə hər hansı şəxsə, onun müraciəti əsasında pulsuz təqdim olunması.[45]

*12.3-1. Bu Qanunun 12.3-cü maddəsində göstərilmiş qurumlar törəmə cəmiyyət olduqda və qurumun bilavasitə və ya son nəticədə tabe olduğu əsas cəmiyyət maliyyə hesabatlarını bu Qanunun 12.3.1-ci maddəsinin tələblərinə uyğun olaraq dərc etdirdikdə, qurum maliyyə hesabatlarını dərc etdirməmək hüququna malikdir.*[46]

12.4. Mühasibat uçotu subyektinin nizamnaməsi ilə müəyyən olunmuş idarəetmə orqanı bu subyektin maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanmasına, təqdim və dərc olunmasına cavabdehdir.

*12.5. Kommersiya təşkilatlarının Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına təqdim etdikləri vergi hesabatları bu Qanunun tələblərinə uyğun olaraq təqdim etdikləri maliyyə hesabatlarını əvəz etmir.*[47]

*12.6. Bu Qanunun 12.3-cü maddəsinə uyğun olaraq, maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə dərc etməli olan kommersiya təşkilatlarının siyahısını (bu Qanunun 12.2-ci maddəsində göstərilənlər istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanı ildə bir dəfə hesabat ilindən sonrakı ilin mart ayının 31-dək müvafiq icra hakimiyyəti orqanına təqdim edir.*

## *Fəsil IV-1*[48]

## ***Publik hüquqi şəxslərin mühasibat uçotu və maliyyə hesabatları***[49]

### *M a d d ə 1 2 - 1 .* ***Publik hüquqi şəxslərin mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsi***[50]

*12-1.1. Bu Qanunun 12-1.2-ci maddəsində göstərilən mühasibat uçotu subyektləri istisna olmaqla, publik hüquqi şəxslər maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib edirlər və mühasibat uçotunu bu Qanunun 8.1-1-ci maddəsi ilə müəyyən edilmiş uçot qaydalarına uyğun aparırlar.*[51]

*12-1.2. Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisəsi, uşaq evləri sosial xidmət müəssisəsi, açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi, məktəbəqədər təhsil müəssisəsi, ümumtəhsil məktəbi, peşə təhsili müəssisəsi, orta ixtisas təhsili müəssisəsi, ali təhsil müəssisəsi, xüsusi təhsil müəssisəsi və ailə tipli kiçik qrup evi bu Qanuna əsasən tələb olunan maliyyə hesabatlarını aşağıdakı qaydada tərtib edirlər:*[52]

*12-1.2.1. nizamnamələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ nəzərdə tutulduğu halda, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya öz seçimlərindən asılı olaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq;*[53]

*12-1.2.2. nizamnamələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ nəzərdə tutulmadığı halda, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq.*[54]

*12-1.2-1. Bu Qanunun 12-1.2-ci maddəsində nəzərdə tutulmuş mühasibat uçotu subyektləri tətbiq etdiyi standartlardan asılı olaraq, mühasibat uçotunu bu Qanunun 8.1-1-ci, 10.1.1-ci və ya 14.1-1-ci maddələrində nəzərdə tutulmuş uçot qaydalarına uyğun aparırlar.*[55]

*12-1.3. Bir və ya daha çox törəmə publik hüquqi şəxsə və (və ya) təsərrüfat cəmiyyətinə malik olan hər hansı publik hüquqi şəxs hazırladığı maliyyə hesabatından əlavə olaraq, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları tərtib etməlidir.*

*12-1.4. Publik hüquqi şəxslərin maliyyə hesabatları üçün hesabat dövrü bu Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş müddətlərə uyğun müəyyən edilir.*

*12-1.5. Publik hüquqi şəxslər hesabat dövrü başa çatdıqdan sonra, illik maliyyə hesabatlarını növbəti ilin aprel ayının 30-dan, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını isə, növbəti ilin iyun ayının 30-dan gec olmayaraq təqdim etməlidirlər.*

*12-1.6. Publik hüquqi şəxslər illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tabe olduğu yuxarı təşkilata və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edən publik hüquqi şəxsə, habelə qanunla və nizamnamələri ilə müəyyən edilmiş şəxslərə, bunlar olmadıqda isə təsisçiyə təqdim edirlər.*

*12-1.7. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxslər illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təsisçiyə təqdim edirlər.*

*12-1.8. Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin dövlət büdcəsindən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı vəsait ayrılan publik hüquqi şəxslər (bu Qanunun 12-1.2-ci maddəsində göstərilənlər istisna olmaqla) illik maliyyə hesabatlarını və*

*birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.*

*12-1.9. Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edən (bu Qanunun 12-1.2-ci maddəsində göstərilənlər istisna olmaqla), habelə nizamnamələrində maliyyə hesabatlarının dərc edilməsi nəzərdə tutulan və bu Qanunun 12-1.7-ci və 12-1.8-ci maddələrində qeyd edilən publik hüquqi şəxslər ~~(bu Qanunun 12-1.2-ci maddəsində göstərilənlər istisna olmaqla)~~ illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə özlərinin rəsmi internet səhifələrində və ya mətbu orqanda dərc edirlər.*[56]

*12-1.10. Publik hüquqi şəxslər illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc etdikdə, onların törəmə publik hüquqi şəxsləri maliyyə hesabatlarını dərc etmirlər.*

*12-1.11. Publik hüquqi şəxslərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına təqdim etdikləri vergi hesabatları bu Qanunun tələblərinə uyğun olaraq təqdim etdikləri maliyyə hesabatlarını əvəz etmir.*[57]

## F ə s i l V

## QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ *MÜHASİBAT UÇOTU VƏ* MALİYYƏ HESABATLARI[58]

### M a d d ə 1 3 . Qeyri-kommersiya təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi

*13.1. Büdcə təşkilatları və bələdiyyə orqanları bu Qanuna əsasən tələb olunan maliyyə hesabatlarını İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun tərtib edirlər.*[59]

*13.2. Qeyri-hökumət təşkilatları maliyyə hesabatlarını müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formaya uyğun tərtib edirlər.*

13.3. Siyasi partiyalar bu Qanuna əsasən tələb olunan maliyyə hesabatlarını müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş siyasi partiyalarda ~~sadələşdirilmiş~~ mühasibat uçotunun aparılması qaydalarına uyğun tərtib edirlər.[60]

*13.4. Digər qeyri-kommersiya təşkilatları, o cümlədən büdcədənkənar dövlət fondları iş xüsusiyyətlərindən asılı olaraq maliyyə hesabatlarını bu Qanunla müəyyən edilmiş müvafiq beynəlxalq standartlara uyğun olaraq tərtib edirlər.*

### *M a d d ə 1 4. **Qeyri-kommersiya təşkilatları üçün mühasibat uçotunun aparılması, hesabat dövrü, maliyyə hesabatlarının təqdim və dərc edilməsi***[61]

*14.1. Büdcə təşkilatları üçün hesabat dövrü və maliyyə hesabatlarının təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

*14.1-1. Bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş təşkilatlar mühasibat uçotunun aparılmasını İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi uçot qaydalarına uyğun həyata keçirirlər.*[62]

14.2. Bələdiyyə orqanlarının yerli büdcənin icrası haqqında maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi qaydaları “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.[63]

14.3. *Büdcə təşkilatlarının* bu qanuna uyğun olaraq təqdim etdikləri maliyyə hesabatları "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının illik dövlət büdcəsi haqqında qanunları və büdcə sisteminə aid olan digər müvafiq normativ hüquqi aktlar əsasında tələb olunan maliyyə hesabatlarını əvəz etmir~~, onlara əlavə edilir~~.[64]

14.4. Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[65]

*14.4-1. Qeyri-hökumət təşkilatları mühasibat uçotunun aparılmasını İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi uçot qaydalarına uyğun həyata keçirirlər.*[66]

~~14.5. Qeyri-hökumət təşkilatları illik maliyyə hesabatlarını bu qanunun 12-ci maddəsinin tələblərinə uyğun olaraq dərc etdirirlər.~~[67]

14.6. *Siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilir.* Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə kütləvi informasiya vasitələrində dərc etdirirlər.[68]

*14.7. Bu Qanunun 13.4-cü maddəsində nəzərdə tutulmuş təşkilatlar mühasibat uçotunun aparılmasını, iş xüsusiyyətlərindən asılı olaraq, bu Qanunla müəyyən edilmiş müvafiq uçot qaydalarına uyğun həyata keçirirlər. Həmin təşkilatların maliyyə hesabatları üçün hesabat dövrü bu Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş müddətlərə uyğun müəyyən edilir və bu təşkilatlar hesabat dövrü başa çatdıqdan sonra, illik maliyyə hesabatlarını növbəti ilin aprel ayının 30-dan, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını isə, növbəti ilin iyun ayının 30-dan gec olmayaraq təsisçiyə, habelə qanunla və nizamnamələri ilə müəyyən edilmiş şəxslərə təqdim etməlidirlər.*[69]

*14.8. Qeyri-kommersiya təşkilatlarının Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına təqdim etdikləri vergi hesabatları bu Qanunun tələblərinə uyğun olaraq təqdim etdikləri maliyyə hesabatlarını əvəz etmir.*

## *Fəsil V-I Peşəkar mühasib sertifikatının verilməsi*[70]

*Maddə 14-1.* ***Peşəkar mühasib sertifikatının verilməsi***

*14-1.1. Peşəkar mühasib sertifikatının verilməsi məqsədi ilə imtahanların keçirilməsi və sertifikatların verilməsi müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən, peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.*

*14-1.2. Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

*14-1.3. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən peşəkar mühasib sertifikatının qüvvədə olma müddəti beş ildir. Peşəkar mühasib kimi fəaliyyətini davam etdirmək istəyən şəxs peşəkar mühasib sertifikatının qüvvədə olma müddətinin son ilində növbəti sertifikatı almaq üçün müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən keçirilən imtahanlarda iştirak etməli və yenidən peşəkar mühasib sertifikatı almalıdır.*

*14-1.4. Peşəkar mühasib sertifikatı alaraq fəaliyyətə başlayan şəxs sonradan eyni standart üzrə iki dəfə sertifikat aldıqda, sonuncu sertifikat şəxsə ömürlük verilir və həmin şəxs sertifikatda qeyd olunan standart üzrə peşəkar mühasib kimi fəaliyyətini davam etdirməsi üçün hər hansı imtahana cəlb olunmur.*

## Fəsil VI
## YEKUN MÜDDƏALAR

Maddə 15. **Mühasibat məlumatlarının məxfiliyinin qorunması**

*15.1. Mühasibat uçotu sənədlərində kommersiya sirri hesab edilən məlumat olduqda, bu məlumatların açıqlanması "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.*[71]

15.2. Dövlət orqanlarının qanunla müəyyən edilmiş hallarda və qaydada mühasibat uçotunda istifadə olunan bütün sənədlərlə tanış olmaq hüququ vardır.

15.3. Mühasibat uçotu subyekti tərəfindən audit yoxlamasına cəlb olunmuş auditorun qanunvericiliklə müəyyən edilmiş qaydada bütün mühasibat uçotu sənədləri ilə tanış olmaq hüququ vardır.

*Maddə 16.* ***Mühasibat uçotu üzrə qanunvericiliyin pozulmasına görə məsuliyyət***[72]

*16.1. Mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanması, təqdim olunması, dərc edilməsi, mühasibat uçotu sənədlərinin saxlanılması ilə əlaqədar qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*

*16.2. Bu Qanunla müəyyən edilmiş tələblərə uyğun mühasibat uçotunun aparılmamasına görə mühasibat uçotu subyektinin rəhbəri, baş mühasib və ya mühasibat uçotu xidmətini həyata keçirən hüquqi və ya fiziki şəxs olan sahibkarlıq subyektləri, habelə bu Qanunun 3.2-ci və 3.4-cü maddələrinin tələblərinin pozulmasına görə mühasibat uçotu subyektinin rəhbəri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*

~~Maddə 17. **İcra müddəti**~~[73]

-

~~17.0. Mühasibat uçotu subyektləri bu qanunun 8-ci, 9-cu, 10-cu və 13-cü maddələrində göstərilmiş tələbləri aşağıda müəyyən edilmiş tarixlərdən gec olmayaraq bütün hesabat dövrləri üçün icra etməlidirlər:~~

~~17.0.1. bu qanunun 8-ci və 10-cu maddələrində göstərilmiş bütün mühasibat uçotu subyektləri - 2008-ci il 1 yanvar tarixdən;~~

~~17.0.2. bu qanunun 9-cu maddəsində göstərilmiş bütün mühasibat uçotu subyektləri - 2006-cı il 1 yanvar tarixdən;~~

~~17.0.3. bu qanunun 13-cü maddəsində göstərilmiş bütün mühasibat uçotu subyektləri - 2009-cu il 1 yanvar tarixdən.~~

Maddə 18. **Keçid müddəaları**

~~18.1. Bu qanunla müəyyən edilmiş Milli Mühasibat Uçotu Standartları və uçot qaydaları qüvvəyə minənədək mühasibat uçotu ilə bağlı mövcud olan normativ hüquqi aktlar qüvvədə qalır.~~[74]

~~18.2. Bu qanunla müəyyən edilmiş Milli Mühasibat Uçotu Standartları qüvvəyə mindikdən sonra Mühasibat uçotu ilə bağlı qüvvədə olan normativ hüquqi aktlar ilə Milli Mühasibat Uçotu Standartları və uçot qaydaları arasında ziddiyyət yarandığı halda, Milli Mühasibat Uçotu Standartları və ya uçot qaydaları tətbiq edilir.~~

~~18.3. Milli Mühasibat Uçotu Standartları bütövlükdə qüvvəyə minənədək hazırlanmış Milli Mühasibat Uçotu Standartlarının mərhələlərlə tətbiqi müddətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

18.4. ~~2008-ci il 1 yanvar tarixinə qədər~~ Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən ~~mühasibat uçotunu aparmalı və~~ maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumların siyahısı ~~bu qanun qüvvəyə mindikdən sonra bir il müddətində~~ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir və zərurət yarandıqda bu siyahıya əlavələr və dəyişikliklər edilir.[75]

*18.5. Bu Qanunun 3.4-cü maddəsində göstərilən baş mühasiblər tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsi mərhələli şəkildə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi müddətlərə və ardıcıllığa uyğun olaraq*

*həyata keçirilir.*[76]

M a d d ə 1 9 . **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2004-cü il
716-IIQ

-

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 28 oktyabr 2008-ci il tarixli 711-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 14 dekabr 2008-ci il, 279, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, 12, maddə 1049**)
2. 12 fevral 2010-cu il tarixli **952-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Azərbaycan" qəzeti 18 aprel 2010-cu il, 82, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-ci il, 4, maddə 265**)
3. 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 aprel 2010-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 276)**
4. 1 may 2012-ci il tarixli **350-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 06 iyun 2012-ci il, 123, "Azərbaycan" qəzeti 07 iyun 2012-ci il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 6, maddə 512)**
5. 29 may 2012-ci il tarixli **370-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 21 iyun 2012-ci il, 135, "Azərbaycan" qəzeti 23 iyun 2012-ci il, 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 6, maddə 529 )**
6. 11 dekabr 2012-ci il tarixli **499-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 19 yanvar 2013-cü il, 12; "Azərbaycan" qəzeti, 23 yanvar 2013-cü il, 15; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 01, maddə 18 )**
7. 29 may 2015-ci il tarixli **1299-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 16 iyul 2015-ci il, 152; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 819)**
8. 30 sentyabr 2016-cı il tarixli **315-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 oktyabr 2016-cı il, 231, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1601 )**
9. 30 sentyabr 2016-cı il tarixli **332-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 oktyabr 2016-cı il, 233 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 10, maddə 1609 )**
10. 30 sentyabr 2016-cı il tarixli **319-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, 257 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1754)**
11. 1 fevral 2017-ci il tarixli **511-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 12 mart 2017-ci il, 55 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 333)**
12. 4 may 2018-ci il tarixli **1140-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 iyun 2018-ci il, 124 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1179)**
13. 28 dekabr 2018-ci il tarixli **1411-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 28)**
14. 29 mart 2019-cu il tarixli **1552-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 may 2019-cu il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 797)**
15. 9 aprel 2019-cu il tarixli **1563-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 23 aprel 2019-cu il, 87 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 599)**
16. 27 iyun 2019-cu il tarixli **1622-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 11 avqust 2019-cu il, 175 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1365)**
17. 22 dekabr 2020-ci il tarixli **228-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 8 yanvar 2021-ci il, 3 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 6)**
18. 29 oktyabr 2021-ci il tarixli **391-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 dekabr 2021-ci il, 278 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1298)**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

[1] 4 may 2018-ci il tarixli **1140-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 iyun 2018-ci il, 124 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1179)** ilə 1.2-ci maddədən "**və büdcədənkənar dövlət fondları** " və "**, habelə tövsiyə xarakteri daşıyan sənədlər**" sözləri çıxarılmışdır.

[2] 28 dekabr 2018-ci il tarixli **1411-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 28)** ilə yeni məzmunda 1.3-cü maddə əlavə edilmişdir.

